# Azad Rəhimov



2001-ci ildə Kənd Təssərüfatında Özəl bölmənin İnkişafı Agentliyinin icra etdiyi «Kənd təsərrüfatının inkişafı və kreditləşməsi» layihəsində məsləhətçi kimi fəaliyyətə başlamışdır.

2006-cı ildən «Vitor» mikrokredit MMC-də İnsan Resurslarının İnkişaf Proqramını meneceri və təlim mərkəzini rəhbəri kimi işə qəbul edilmişdir, hal hazıra kimi işləyir. 2006-cı idən 2015 ilədək İRİ Proqramı aşağıdakı sahələr üzrə faliyyət göstərmişdir:

- İnsan Resurslarının İnkişaf Proqram Təlim Mərkəzi: 2006-2015 ci illər ərzidə müxtəlif sahələr üzrə 80 nəfər peşəkar beynəlxalq təliççilər hazırlanmışdır.
- Təhsil qrant sxemi: hər il 20 nəfər qaçqın, köçkün, imkansız ailələrin ali məktəblərdə təhsil alan övldlarının təhsil haqlarını ödənilməsi üçün qrant verilmişdir.
- İcma İnkişaf Proqramı: Gəncə-Qazax və Qəbələ-Zaqatala regionlarında İcma inkişaf proqramını həyata keçirilmişdir.
- Biznes təlimləri və Beynəlxalq Mühasibat təlimləri kursları: Bu təlimlərdən 2006-2015 ci illər ərzində 12 min nəfərdən çox iştirakçı bəhrələnmişdir.

2008-ci ildən Beynəlxalq Əmək Təşkilatının «Öz Biznesinə Başla və Təkmilləşdir» Proqramının təlimçi kursunu bitirmiş, həmin ildən «Öz Biznesinə Başla və Təkmilləşdir» Proqramının Master Təlimçi kursların qatılmışdır. 2010-cu ildə Cənubi Qafqazda «Öz Biznesinə Başla və Təkmilləşdir» Proqramının serifikati və Lisenziyası alan ilk və hələ də yeganə Master Təlimçidir.

Ən uğurlu layihə isə 2016-cı ildə həyata keçirilən ƏƏSMN və Bət-in birgə layihəsi olan Özünəməşgulluq layihəsidir. Rəhbəri olduğu «Özünəməşğulluq» layihəsinin ugurla həyata keçirildi, nəticədə Azərbaycan hökuməti bu layihəni dövlət proqramı kimi qəbul etdi. Özünüməşğulluq proqramının həyata keçirilmsi üçün Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "İşsizlikdən sığorta haqqında", "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunları qəbul edildi və digər normativ hüquqi aktlarda müvafiq dəyişiklik edildi. Bu günə qədər bu proqramdan, 45608 nəfər faydalamışdır. 2023-cü ildən etibarən ildə 30 min nəfərin bu proqramdan faydalanmasi nəzərdə tutulur.